

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 115 (24.252)

*26 iyun 2023-cü il, bazar ertəsi*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsi verilsin:

polkovnik Elmir Zülfüqar oğlu İbrahimova
polkovnik Arif Həsən oğlu Həsənova
polkovnik İslam Şixzadə oğlu Əmirağayevə
polkovnik Bilal İsmayıl oğlu Çompuzova
polkovnik İlqar Saab oğlu Qafarova.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 iyun 2023-cü il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**“Azərbaycan Bayrağı” ordeni ilə**

Hüseynov Münasib Asif oğlu – baş leytenant
Qocayev Aqil Bərşad oğlu – baş leytenant
Vəliyev Fərid Azər oğlu – baş leytenant
Usublu İslam Ələddin oğlu – baş gizir

**3-cü dərəcəli “Rəşadət” ordeni ilə**

Məmmədov Vüqar Zahid oğlu – mayor
Rzayev Orxan Ənvər oğlu – baş leytenant
Hüseynəliyev Elvin Fazil oğlu – leytenant

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Babaşov Nəsimi Məhərrəm oğlu – polkovnik
İsmayılov Füzuli Qəzənfər oğlu – polkovnik
Fərmanov Eldar Akif oğlu – mayor
Əhmədov Gülağa Əli oğlu – kapitan
Səlimov Fərhad Mehman oğlu – kapitan
Səmədli Səməd Bəxtiyar oğlu – leytenant
Süleymanov Cavid Fəhrad oğlu – gizir
Mollayev Elçin Zaur oğlu – kiçik çavuş
Doşanov Nurlan Arif oğlu – əsgər

**“Vətən uğrunda” medalı ilə**

Əliyev Elçin Nəriman oğlu – ədliyyə polkovniki
Əmirov Mahmud Səməd oğlu – polkovnik
Abdullayev Azər Üzeir oğlu – polkovnik-leytenant
Ayvazov Sahib Sabir oğlu – polkovnik-leytenant
Babayev Saqi Elxan oğlu – polkovnik-leytenant
Hüseynov Bayram Habil oğlu – mayor
Abdullayev Ramazan Səfəralı oğlu – kapitan
Ağayev Gülməmməd Elşən oğlu – kapitan
Cavadlı Kamal Xaləddin oğlu – baş leytenant
Əkbərov Ceyhun İman oğlu – baş leytenant
Əlibəyli Şəhriyar Ramiz oğlu – baş leytenant (ölümündən sonra)
Əzimli Calal Səlim oğlu – baş leytenant
Hüseyinov Elvin Laçın oğlu – baş leytenant
Hüseynov Kamran Namiz oğlu – baş leytenant (ölümündən sonra)
Novruzov Musa Cəmşid oğlu – baş leytenant
Əliyev Babək Əsgər oğlu – leytenant (ölümündən sonra)
Məmmədov Əyyub Vəliəddin oğlu – leytenant
Vəlizadə İbrahim Səməd oğlu – leytenant (ölümündən sonra)
Cahangirov Tural Qələmhüseyn oğlu – kiçik leytenant
Həsənov Elşad Qabil oğlu – gizir (ölümündən sonra)
Məhərrəmov Vasif Üzeyir oğlu – gizir (ölümündən sonra)
Zalov Vidadi Nizami oğlu – gizir (ölümündən sonra)
Tağıyev Səbuhi Gündüz oğlu – çavuş (ölümündən sonra)
Cabbarov Marlen Zeynulla oğlu – kiçik çavuş
İsmayılov Nicat Bəhruz oğlu – kiçik çavuş
Ramazanov Elxan Elmaroviç – kiçik çavuş
Bayramov İlkin Bayram oğlu – əsgər (ölümündən sonra)
Cavadov Rəşad Fərzəli oğlu – əsgər (ölümündən sonra)
Həmzəyev Əfqan Bəhman oğlu – əsgər (ölümündən sonra)
Hüseynov Eşqin Cəmil oğlu – əsgər (ölümündən sonra)
Qədirli Elnur Rəcəb oğlu – əsgər (ölümündən sonra)
Mehdiyev Asim Yaqub oğlu – əsgər (ölümündən sonra)
Nəzərov Ayaz Azər oğlu – əsgər (ölümündən sonra)
Salamov Qorxmaz Bayram oğlu – əsgər (ölümündən sonra)

**“İgidliyə görə” medalı ilə**

Cavadov Fəxrəddin Nizam oğlu – polkovnik
Hacıbalayev Rahib Süleyman oğlu – mayor
Həsənov Hüseyn Həsən oğlu – kapitan
İsgəndərov Səxavət Qazıbəy oğlu – kapitan
Allahverdiyev Əhliman Kamran oğlu – baş leytenant
Məmmədov Araz Şəmsəddin oğlu – baş leytenant
Məmmədzadə Taleh Səxavət oğlu – baş leytenant
Muradov Əbubəkir Məhərrəm oğlu – baş leytenant
Mirzəyev Davud Mehti oğlu – leytenant
Bəkirov Rafiq Səlim oğlu – kiçik leytenant
Ağayev Fərid Səid oğlu – baş gizir
Mustafayev Taryel Vəli oğlu – baş gizir
Abdullayev Elfaq Vəzir oğlu – gizir
Abıyev Hacağa Əli oğlu – gizir
Axundov Əbülfəz Nüsrət oğlu – gizir
Ədilov Əhsən Ağasimayıl oğlu – gizir
Novruzlu Mustafa Namiq oğlu – gizir
Əhmədov Xəzri Vaqif oğlu – kiçik çavuş
Hüseynov Rahib Rabil oğlu – kiçik çavuş
Abakarov Murad Rəşid oğlu – əsgər
Abdullayev Rövşən Fariz oğlu – əsgər
Hüseynov Xəyal Həsənağa oğlu – əsgər

**“Cəsur döyüşçü” medalı ilə**

Əkbərov Aqil Fayəddin oğlu – mayor
Bünyatov İsmayıl Qəhraman oğlu – leytenant
Ağayev Elvin Bəylər oğlu – gizir
Bəşirli Sənan Nazim oğlu – gizir
Əhmədli Cavid Bağış oğlu – gizir
Əliyev Ceyhun Fazil oğlu – gizir
Gülmalıyev Loğman Bəxtiyar oğlu – gizir
Qəhrəmanov Rəşad Yaşar oğlu – gizir
Fərhadov İmran Həbib oğlu – çavuş
Həsənov Tural Qabil oğlu – çavuş
Alıyev Vüsal Yusif oğlu – kiçik çavuş
Əliyev Səbuhi Vahid oğlu – kiçik çavuş
Əlizadə Əli Rahib oğlu – kiçik çavuş
Nuri Nemət Şahbaz oğlu – kiçik çavuş
Rzayev Oruc Ənvər oğlu – kiçik çavuş
Zəkəryəyev Səyyad Ülfət oğlu – kiçik çavuş
Baloğlanov Orxan Mehman oğlu – əsgər
Həbibov Kamran Mütəllim oğlu – əsgər
İsayev Murad Mövlüd oğlu – əsgər
Yusifov Yusif Sübhi oğlu – əsgər

**“Döyüşdə fərqlənməyə görə” medalı ilə**

Ağayev Babək Bəybala oğlu – mayor
Şükürov Vüqar Fikrət oğlu – mayor
Baxşalıyev Samir Vahid oğlu – kapitan
Qafarov Hilal Malik oğlu – kapitan
Bədəlov Aqşin Şahin oğlu – baş leytenant
Zöhrabov Namiq Əskər oğlu – baş leytenant
Kərimov Fazil Baxış oğlu – baş gizir
Məmmədov Səxavət Tərlan oğlu – baş gizir
Hüseynov Nəriman Məzahir oğlu – gizir
Nagıyev Elsevər Şahvələd oğlu – gizir
Zamanov Ərşad Müslüm oğlu – gizir
Əmənov Cəmşid Cəbrayıl oğlu – kiçik çavuş
Babayev Fəzail Atamoğlan oğlu – əsgər
Əhmədov Qismət Baləhməd oğlu – əsgər
Qasımov Afyəddin Hidayət oğlu – əsgər
Vəliyev Tuqay Nurəddin oğlu – əsgər
Zeynalov Eşqin Ehtibar oğlu – əsgər

**“Suqovuşanın azad olunmasına görə” medalı ilə**

Salamov Qorxmaz Bayram oğlu – əsgər (ölümündən sonra)

**“Xocavəndin azad olunmasına görə” medalı ilə**

Qədirli Elnur Rəcəb oğlu – əsgər (ölümündən sonra)
Mehdiyev Asim Yaqub oğlu – əsgər (ölümündən sonra)

**“Kəlbəcərin azad olunmasına görə” medalı ilə**

Vəlizadə İbrahim Səməd oğlu – leytenant (ölümündən sonra)

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Əhmədov Bahadır Allahverdi oğlu – tibb xidməti polkovniki
Həziyev Samir Mətləb oğlu – polkovnik
İsmayılov Arif Aslan oğlu – tibb xidməti polkovnik-leytenantı
Nəsibov İlqar Kamil oğlu – polkovnik-leytenant
Şükürlü Mətin Əliisa oğlu – polkovnik-leytenant
Rəhimov Hüseyn Ağasən oğlu – mayor
Hacıyev Hacı Firidun oğlu – baş leytenant
Müseyibov Rafiq Əzim oğlu – leytenant
Süleymanov Ülvi İldırım oğlu – leytenant
Süleymanov Nurlan Sabir oğlu – gizir
Şahverdiyev Seymur Cəmil oğlu – gizir
Yariyev Məhəddin Abdulla oğlu – gizir
Abdullayev İlyas Seyran oğlu – kiçik çavuş
Dibirov Ramazan Ramiloviç – kiçik çavuş
Səlimov Ramiz Mübariz oğlu – kiçik çavuş
Mustafayev Ramiz Bağman oğlu – əsgər (ölümündən sonra)
Ramazanov Ramazan Ramazan oğlu – əsgər
Şərifli Şərif Seymur oğlu – əsgər.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 iyun 2023-cü il*

## Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 26 İyun – Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyinin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyinin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi barədə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

2. Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi ilə əlaqədar irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

3. Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin cari ildə Naxçıvan Dövlət Universitetinin tabeliyində fəaliyyətinin maliyyələşdirilməsi Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyi üzrə nəzərdə tutulmuş vəsait çərçivəsində davam etdirilsin, 2024-cü ildən isə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 3-cü hissəsində qeyd olunan maliyyələşmə məsələlərini növbəti illərin Azərbaycan Respublikasının icmal və dövlət büdcəsinin tərtibi prosesində nəzərə alsın.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 25 iyun 2023-cü il*

## Naxçıvan Lift Xidmətinin və Naxçıvan Yaşıllaşdırma Xidmətinin Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.11-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təklifi nəzərə alınaraq, Naxçıvan Lift Xidməti və Naxçıvan Yaşıllaşdırma Xidməti ştat vahidləri və onlara məxsus əmlakla birlikdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 25 iyun 2023-cü il*

**26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür**

## Vətənin etibarlı müdafiəçisi, müstəqilliyin təminatçısı –
# Müzəffər, Qalib Azərbaycan Ordusu




***105 il bundan öncə, 1918-ci il 26 iyun tarixdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının verdiyi qərarla general-leytenant Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi sayılan Əlahiddə Azərbaycan korpusu yaradıldı. Xalqımız qarşısında əvəzsiz tarixi xidmətləri olan, 100 illik yubileyini böyük qürur və təntənə ilə qeyd etdiyimiz Ümummilli Liderimiz Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə həmin gün Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan olunub.***

Azərbaycanda nizami və yüksək döyüş hazırlığına malik ordunun yaradılması və inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atılıb. Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsində ötən əsrin 70-ci illərində ölkəmizdə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması, burada hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli milli ordusunun zabit heyəti ilə təmin olunmasında əhəmiyyətli rol oynayıb. Peşəkar milli ordunun yaradılmasına isə ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanılıb. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılıb, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul edilib. Həmin il oktyabrın 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilib. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilib.

Azərbaycan Silahlı Qüvvələrinin təkmilləşdirilməsi prosesinə Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra başlanılıb. Qısa müddətdə ordumuzun strukturu tam formalaşdırılıb, bütün növ hərbi birləşmələr yaradılaraq komplektləşdirilib. Eyni zamanda görkəmli dövlət xadiminin rəhbərliyi ilə ordunun qanunvericilik bazası yaradılıb, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulub. Nəticədə, milli hərbi birləşmələrimiz sülhməramlı qismində dünyanın müxtəlif münaqişə zonalarında iştirak edib, fəaliyyəti yüksək qiymətləndirilib. ***"Müstəqil Azərbaycan Respublikasının ən vacib, ən böyük sahəsi onun Silahlı Qüvvələridir, milli ordusudur. Hər bir dövlətin müstəqilliyinin rəmzi, təminatçısı onun Silahlı Qüvvələridir. Etibarlı, güclü, Vətənini, torpağını müdafiə etməyə qadir silahlı qüvvələri olmayan ölkənin müstəqilliyi də etibarlı ola bilməz"***, – deyən Ulu Öndərin 1993-cü ildə ali hakimiyyətə ikinci qayıdışından sonra həyata keçirdiyi tədbirlər, ümumilikdə, Azərbaycan Silahlı Qüvvələrinin inkişafında yeni mərhələ olub.

Dahi şəxsiyyətin ordu quruculuğu sahəsində gördüyü işlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə iqtisadiyyatının sürətli inkişafı, ilk növbədə, dövlətimiz üçün prioritet olan ordumuzun büdcəsinin artmasına, orduda müasir komplektləşdirmənin aparılmasına geniş imkanlar yaradıb. Nəticədə, Silahlı Qüvvələrimiz dünyanın ən müasir silah-sursatları, hərbi-texnoloji avadanlıqları ilə təmin olunub, şəxsi heyətin döyüş ruhu dəfələrlə yüksəldilib. Ordumuzun gücləndirilməsi ilə bağlı görülən mühüm işlər, keçirilən təlimlər Silahlı Qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına, güclü nizami hissələrin formalaşdırılmasına yol açdı. İllərlə həyata keçirilən ordu quruculuğu işləri öz nəticəsini verdi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz işğal altında olan ərazilərimizin azad olunması üçün geniş hərbi əməliyyatlara başladı və 44 gün ərzində düşməni diz çökdürərək darmadağın etdi, ərazi bütövlüyümüz təmin olundu. Vətən müharibəsi silahlı qüvvələrimizin nəyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi. Bu savaş, eyni zamanda XXI əsrin ən sürətli, müasir və ədalətli müharibəsi kimi də tarixə düşdü.

2020-ci ildə 44 günlük Vətən müharibəsində müzəffər Ordumuzun məğrur hərbçiləri qarşısında diz çökən, ağ bayraq qaldıran düşmən müharibədən sonra da öz çirkin niyyətlərindən əl çəkmədi. Dəfələrlə Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altında olan Azərbaycan ərazilərində, sərhəddə təxribatlara cəhd edən ermənilər ayıqsayıqlığını itirməyən Silahlı Qüvvələrimiz tərəfindən layiqli cavablarını aldılar. Mənfur ermənilər Laçın rayonundan keçən yolun humanitar məqsədlər üçün nəzərdə tutulduğu bəndlərin də yer aldığı 10 noyabr bəyanatında üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməkdən boyun qaçıraraq müxtəlif vasitələrlə qanunsuz daşımalar həyata keçirdilər. Diplomatiyamız, ordumuz tərəfindən verilən bəyanatlara, edilən xəbərdarlıqlara baxmayaraq, bu qanunsuzluqlar 2023-cü ildə özünün pik nöqtəsinə çatdı. Məhz cari il martın 5-də qondarma erməni silahlılarının Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə etməklə qanunsuz daşımalara cəhdi zamanı baş verən silahlı qarşıdurmada 2 hərbi qulluqçumuzun şəhid olması və martın 20-də Avropa İttifaqı missiyasının yerləşdiyi Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətində Ermənistanın növbəti təxribatı zamanı Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralanması faktı da qarşı tərəfin vəziyyəti gərginləşdirməyə, silahları yaymağa məqsədli olduğunu bir daha göstərdi. Əvvəlcədən əməliyyat, kəşfiyyat məlumatlarına malik olan Azərbaycan Ordusu düşmənə yeni sarsıdıcı zərbə vurdu. Martın 30-da ordumuz erməni təxribatlarına son qoymaq məqsədilə, eyni zamanda yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəkliyi, əsas və yardımçı yolları, eləcə də sərhədboyu geniş sahələri nəzarətə götürdü. Aprelin 23-də isə Silahlı Qüvvələrimiz Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurdu, məntəqədə ərazi bütövlüyümüzün rəmzi sayılan Azərbaycan Bayrağı qaldırıldı. Xüsusi olaraq vurğulamaq lazımdır ki, 44 günlük Vətən müharibəsindən sonra "Qisas", "Qətiyyətli cavab", "Fərrux" və digər hərbi əməliyyatlarla düşməni yerinə oturdan, mühüm əhəmiyyətə malik hakim yüksəkliklərə sahiblənən, strateji yolları nəzarətə götürən Azərbaycan Ordusu dövlətimizin regionda yeni reallıqları ortaya qoymasında misilsiz xidmətlər göstərib. İlbəil iqtisadi cəhətdən güclənən Azərbaycan dövləti ordumuzun daha da qüdrətlənməsi yönündə məqsədyönlü işlər həyata keçirir, hərbi xərclər artırılır, ordu quruculuğu sahəsində yeni kontraktlar imzalanır, hərbi texnika, silah-sursat alınır, şəxsi heyətin döyüş qabiliyyətinin möhkəmləndirilməsi üçün təlimlər keçirilir. Ötən dövrdə Müzəffər Ali Baş Komandanın təşəbbüsü ilə işğaldan azad edilmiş torpaqlarda yeni hərbi hissələr, sərhəd zastavaları tikilib istifadəyə verilib, Hadrutda, Kəlbəcərdə yeni komando birlikləri yaradılıb, Türkiyə ilə Azərbaycan arasında hərbi qulluqçularımız qardaş ölkədə komando kursları keçiblər. Cari il iyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub hərbi hissəyə Döyüş bayrağının təqdim olunması mərasimində çıxış edərkən ordu quruculuğunun əhəmiyyətinə toxunaraq deyib: ***"Ordumuzun, bütün Silahlı Qüvvələrimizin torpaqlarımızın azad olunması üçün hazırlıq işlərinə xüsusi önəm verilirdi və biz buna nail olduq. Vətən müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə yekunlaşmışdır. Ancaq buna baxmayaraq, müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Çünki dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırır".***

Ölkə Prezidentinin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ötən dövrdə Naxçıvan Muxtar Respublikasında da uğurla icra edilib, dövlət başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Bu əlamətdar hadisə Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaradıb.

Muxtar respublikada ordu quruculuğu prosesi davamlı xarakter daşıyır. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu 2017 və 2018-ci illərdə döyüş və ictimai-



siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülüb. 2017-ci il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad ordumuzun Naxçıvanda yerləşən hissələrinin gücünü hər kəsə nümayiş etdirib. 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklərə yiyələnməsi isə Böyük Zəfərə gedən yolun başlanğıcı olub. Ölkə Prezidenti cənab İlham Əliyev 2021-ci il may ayının 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Günnüt əməliyyatının Azərbaycan Ordusuna qazandırdığı üstünlüyün 44 günlük Vətən müharibəsində mühüm rol oynadığını vurğulayıb: ***"...Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir... Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır".***

Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən mühüm işlərdən biri də kadr hazırlığı ilə bağlıdır. Ötən dövrdə ölkə Prezidentinin diqqət və qayğısı ilə Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası xeyli möhkəmləndirilib, kursantlar üçün müasir tədris və məişət şəraiti yaradılıb. İndiyədək 3 mindən çox kursantın təhsil aldığı lisey ordumuzun peşəkar zabitlərlə təminatında böyük rol oynayır. İyunun 24-də Heydər Əliyev adına Hərbi Liseyin 23-cü buraxılışı münasibətilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin iştirakı ilə keçirilən tədbirdə də vurğulandığı kimi, Vətən müharibəsində bu liseyin də məzunları böyük qəhrəmanlıq və şücaət göstərib, bacarıqlı komandirlər kimi ən çətin döyüş tapşırıqlarını yerinə yetirib, Azərbaycanın zəfər salnaməsinə öz adlarını qızıl hərflərlə yazdırıb, şəhid, qazi olublar. Qeyd olunub ki, Naxçıvandan Şuşayadək zəfər yolu keçən hərbçilərimizin, eləcə də bütün ordu birliklərimizin istifadə etdiyi peşəkar döyüş taktikası dünya hərb tarixində yenilik kimi bu gün qabaqcıl ali hərbi məktəblərdə öyrənilir. Ölkə başçısı torpaqlarımızın işğaldan azad olunmasında, Böyük Qələbənin qazanılmasında naxçıvanlı hərbi qulluqçuların, Əlahiddə Ümumqoşun Ordunun rolunu xüsusi qiymətləndirərək deyib: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".***

Bu gün Azərbaycan Ordusunun yaradılmasının 105-ci ildönümünü, bu ordunun milliləşdirilməsində, gücləndirilməsində, qüdrətlənməsində əvəzsiz xidmətləri olan Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyini böyük qürur hissi ilə, təntənəli şəkildə qeyd edirik. Əminliklə demək olar ki, Ali Baş Komandanın rəhbərliyi ilə xalqımıza tarixində ən böyük Qələbə hissini yaşadan Azərbaycan Silahlı Qüvvələri Ulu Öndərin siyasi irsinə sonsuz sədaqət göstərərək ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında daim misilsiz töhfələr verəcəkdir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü il mayın 10-da Şuşadan xalqımıza tarixi müraciətində dediyi kimi: ***"...Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır – həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib...Bu gün Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax bu Zəfərə, bu Qələbəyə tam layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq..."***

**Nail ƏSGƏROV**

Jurnalist araşdırması

# Mənim məruzəmdən sonra Turqut Özal Ermənistana qarşı bu bəyanatı vermişdi...

*Yazı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü, Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 105-ci ildönümünə həsr olunur.*

***( əvvəli qəzetimizin 25 iyun 2023-cü il nömrəsində )***

*Onlar özləri haqqında danışmağı sevməzlər. Mediaya danışmağı heç sevməzlər. Ona görə yox ki, bu onlar üçün nə zamansa bir məhdudiyyət olub. Həm də ona görə ki, bu, keçmiş xüsusi təyinatlı komandan üçün ordu, vətən və müqəddəs peşə qarşısında məsuliyyət məsələsidir. Bir də axı biz nə vaxtsa həyata keçirilmiş hər hansı bir məxfi əməliyyatı müzakirə etməyəcəkdik ki. Amma söhbətimizdə məxfi detalların olmamasını da istisna etməmişdim. Ona ünvanladığım bəzi suallara cavabında gülümsəyərək – gəlin bunun üzərindən keçək, – deməsi də sonradan düşüncələrimdə yanılmadığımı bir daha mənə hiss etdirmişdi.*

...Aradan bir az keçdi. Bir də gördüm bizim olduğumuz tərəfə bir "Cip" gəlir. (UAZ-ı nəzərdə tutur S.H.) Maşın gəlib yanımıza çatanda baxdım ki, hərbi formada biri maşından endi, tez ayağa qalxıb buna dedim ki, qardaş, biz Türkiyədən gəlirik, Naxçıvana qohumlarımızın yanına gedəcəyik, ancaq bu əsgərlər bizi başa düşmürlər. Bir də gördüm ki, gələn adam mənə türkcə cavab verdi. Sevindik. Dedi qohumlarınız harada qalır? Dedik ki, şəhərdə. Dedi, gəlin oturun maşına. Bu adam kim olsa yaxşıdır?



***– Kim? – deyə dillənirəm...***

– Elman.

***– Elman?***

– Bəli, Elman. Naxçıvanın müdafiə təşkilatı idi deyəsən... oranın rəisi, yəni mən bunu sonradan bildim.

***– Həəə... Elman Abbasov. Naxçıvanın Milli Müdafiə Komitəsinin rəisi. Bir neçə il bundan əvvəl dünyasını dəyişib.***

– General bir anlıq dayanaraq fikrə gedir... Allah rəhmət eləsin, – deyir.

***– Deməli onunla gəldiniz şəhərə?***

– Hə, onunla gəldik. Hər dəfə bu hadisə yadıma düşəndə elə bilirəm ki, Elman bir Xızır kimi gəlib bizi oradan çıxartdı. Bir dəfə də buna bənzər bir hadisə Suriyada başıma gəlmişdi. Demək, yenə eynilə mülki geyimdə köhnə bir maşında tək gedirəm. Bir dağ yolunu aşdıqdan sonra baxdım ki, bir az irəlidə, təxminən, 20-25 nəfər əlisilahlı yolu kəsib. Artıq qaçmağa da bir yol yoxdur. Geri qayıtsam, yenə vuracaqlar. Düz sürdüm yanlarına. Maşını saxladılar. Ön pəncərəni dörd barmaq qədər açıb üstlərinə qışqırdım ki, nə var, nə olub, niyə yolu kəsibsiniz? Bir də gördüm içərilərindən bir nəfər irəli çıxıb məndən türkcə soruşdu ki, haralısan? Cavab verdim ki, İstanbuldan. Döndü ərəbcə yanındakılara nə dedisə, hamısı çəkilib mənə yol verdilər. Nə isə Elmanın da oraya gəlib bizi maşına mindirməsi sanki Allahın bir təqdiri idi. Naxçıvana gələnə qədər yolda onunla xeyli söhbət elədik. Gördü ki, biz qohumlarımızın şəhərdə harada qaldığını tam bilmirik, haradan biləк, qohumumuz var? – deyə yenə gülümsəyir. Bizi evinə apardı, qonaq elədi, axşam onlarda qaldıq. Ertəsi gün səhər tezdən Elmana dedik ki, biz gedirik qohumlarımızı axtarmağa, onsuz da onun işləri çox idi, bizə dedi ki, mənə bir xəbər verərsiniz. Onlardan çıxdıq. Naxçıvan Ali Məclisinin binasının harada yerləşdiyini öyrəndik və ora gəlib Heydər bəylə görüşdük.

***– Amma bir dəqiqə... Burası mənə tam aydın olmadı. Bəs içəri necə keçdiniz, sizi kim Heydər Əliyevin yanına apardı?***

– Gülümsəyərək, gəlin onun üstündən keçək, – deyir... Hə, içəri keçdik. Heydər Əliyev bizi çox səmimi qarşıladı. Həmin vaxt bir xeyli söhbət etdik. Baş nazirin salamlarını çatdırdıq. Ertəsi gün və ya bir gün sonra idi, tam xatırlamıram, bir daha görüşdük. Təxminən, ikinci və ya üçüncü görüşümüzdə dedi ki: ***"Mənə bax, sən niyə general olduğunu məndən gizlədirsən?"*** Sonra da gülə-gülə – ***"Bəs sən bilmirsən ki, mən də generalam"***, – dedi. Elə bil başıma qaynar su tökdülər. İndi mən Heydər bəyin yanında yalançı oldum. Fikirləşdim ki, yox, bunu öyrənəcəyəm kim deyib. Ancaq onu deyim ki, artıq Heydər Əliyevlə aramızda çox mehriban bir münasibət də yaranmışdı. Bizimlə çox səmimi idi. Birdən qayıtdım ki, bəs sizə kim dedi ki, mən generalam? Dedi ki, Süleyman bəy.

Burada hər ikimiz özümüzü saxlaya bilməyib gülürük...

Hər halda Süleyman bəy də Heydər Əliyev daha rahat olsun deyə, Türkiyənin hərbi baxımdan da Naxçıvanın arxasında olduğunu çatdırmaq üçün belə demişdi, – deyə general sözlərinə davam edir.

...Naxçıvanda olarkən oranı qarış-qarış gəzmişəm. Bir ucu Sədərəkdən tutmuş Ordubada kimi hər yerlə yaxından tanış olmuşam. Naxçıvandakı döyüş postlarının hər birini yaxşı tanıyıram. Heç yadımdan çıxmaz, Sədərək döyüşlərində oradakı mülki əhalinin müvəqqəti olaraq köçürülməsində, dolu dağıdan topların Sədərəkdə yerləşdirilməsində şəxsən iştirak etmişəm.

***– Kamal bəy, yəqin ki, xatırlayarsınız, bir dəfə ermənilər Sədərəyə hücumdan əvvəl belə bir bəyanat yaymışdılar ki, Türkiyə Ermənistanı top atəşinə tutur, bizim sərhədlərimizə müdaxilə edir. Bir gün sonra da rəhmətlik Turqut Özal televiziya vasitəsilə çıxış edərək bildirmişdi ki, biz öz ərazimizdə təlimlər keçirik. İndi Ermənistandakı boş əraziyə iki top düşməklə Ermənistan dağılmadı ki?***

– Nəinki xatırlayıram, hətta Özal o bəyanatı mənim ona məruzəmdən sonra vermişdi.

***– Bu necə olmuşdu?***

– Olmuşdu... bir az ara verir və sonra yenidən gülümsəyərək "gəlin bunun da üzərindən keçək", – deyir.

***– Ulu Öndər Türkiyə ilə əlaqələrə çox böyük önəm verirdi. Bu dəfə mən dillənirəm.***

– Bəli, Heydər bəy Süleyman Dəmirəllə Türkiyə ilə bir çox sahələrdə möhkəm əlaqələrin yaranmasına nail olmuşdu. Bütün bu əlaqələrin içərisində mən də var idim. Xatirimdədir, Türkiyə banklarından Naxçıvana vəsaitin ayrılmasında, müxtəlif yardımların edilməsində şəxsən vasitəçi olmuşam. Oradakı rus hərbi birləşmələrinin çıxarılması prosesində də iştirak etmişəm. Ümumiyyətlə, Naxçıvanda xidmətlərimiz çox olub. Hətta orada bir neçə dəfə toyda da olmuşam. Bir kənd var idi, adını indi xatırlaya bilmirəm, dəmiryol stansiyasının yaxınlığında yerləşirdi, orada toya getdik. Toy sahibi Türkiyədən gəldiyimizi hər kəsə dedi, hamı maraqla bizə baxırdı, hətta oynadıq da. Eyni bizim Anadoludakı toylarımız kimi. Orada yediyimiz yeməklər də çox dadlı idi. Ancaq kəndin adını unutmuşam...

Bu dəfə söhbətə bayaqdan bizə qulaq asan polkovnik Şenol bəy müdaxilə edir:

– Yəqin, Naxçıvanın cənubunda yerləşən kəndlərdir. Qaraxanbəyli, Tumbul, bəlkə də, Şahtaxtı kəndlərindən biri olub...

– Xatırlamıram Şenol, üzərindən 30 il vaxt keçib. Toy yiyəsi, yəni evin sahibi də bir maşınqayırma mühəndisi idi. Sonra bizi evinə dəvət etdi. Oturduğumuz otaqda çoxlu kitabları vardı. Bir neçəsini vərəqlədim baxdım, gördüm ki, kiril əlifbası ilədir oxumadım, qoydum yerinə.

Burada yenə bir haşiyə çıxaraq bildirim ki, hazırda istefada olan polkovnik Şenol Çöklü ilk dəfə 1994-cü ildə Naxçıvana gəlib. İlk xidmətini indiki Kəngərli rayonunun Qıvraq qəsəbəsində yerləşən hərbi hissədə keçirib. Sonra Naxçıvan şəhərindəki hərbi hissələrdən birində xidmətini davam etdirib. Milli Ordumuzun formalaşdığı o çətin dövrlərdə əsgərlərimizə təlimlər keçib, Silahlı Qüvvələrimizin inkişafında var gücü ilə çalışıb. Xidmət etdiyi hərbi hissələrdə, əsasən, minamyotçu əsgərlər yetişdirib. Eyni zamanda Naxçıvanda olduğu dövrdə öz xatirələrini günbəgün qələmə alıb. Bu xatirələrdə nələr yoxdu ki... Keçirilən təlimlərdən tutmuş, Naxçıvanın adət-ənənələrindən, burada ziyarət etdiyi muzeylərdən, qonaq olduğu insanlarla görüşlərinədək, hər şeydən. Həm də çoxlu dostlar qazanıb burada. Hətta vaxtilə onlara yazdığı məktubların surətlərini də şəxsi arxivində bu günədək qoruyub saxlayır. Şenol bəylə növbəti gün görüşümüzdə bu haqda xeyli söhbət edirik. Xidməti illərində bir çox ölkələrdə olmuş hörmətli polkovnikin sonralar Türkiyənin Naxçıvandakı Baş Konsulluğunda hərbi attaşe olaraq çalışdığını, ordudan tərxis olunduqdan sonra Osmanlı hərb tarixi haqqında araşdırmalar apardığını, "Məşrutiyyətən Cümhuriyyətə əsgər alma üsulları" adlı mükəmməl bir kitab yazdığının da şahidi oluruq.

Yeri gəlmişkən Kamal bəy də ordudan tərxis olunduqdan sonra tarixi sahədə bir çox kitablar oxuduğunu, araşdırmalar apardığını, xidmətdə olduğu yerlərlə bağlı xatirələrini yazdığını deyir. Amma bunları nəşr olunmaq üçün yox, sadəcə, övladlarına bir xatirə buraxmaq üçün etdiyini bildirir.

General üçlü söhbətimizdə Ulu Öndər Heydər Əliyevlə bağlı başqa bir xatirəsini də danışır. Deyir ki, mən Türkiyəyə qayıtdıqdan sonra xüsusi təyinatlıların komandanlığından Ankaradakı dördüncü ordu korpusuna komandan təyin olundum. Bu korpusun komandanı həm də Türkiyəyə rəsmi səfərə gələn digər dövlətlərin rəhbərlərini qarşılamaq üçün protokolda yer alırdı. Deməli, Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi Ankaraya gələndə rəsmi qarşılanma mərasimindən sonra Türkiyə tərəfi Azərbaycan tərəfinə, Azərbaycan heyəti də Türkiyə heyətinə təqdim olunurdu. Türkiyə heyəti təqdim olunduqdan sonra VİP salonuna keçdik. Elə bu zaman Heydər Əliyev mənə tərəf yaxınlaşaraq gülə-gülə: ***"Hə... general sən də burada imişsən"***, – deyə ucadan mənimlə salamlaşdı. Heydər bəyin məni unutmadığını çatdıran bu zarafatında çox böyük səmimiyyət, isti münasibət, doğmalıq var idi. Yanımızdakı protokol heyətindən bütün nazirlər, digər nümayəndələr maraqla bizə baxırdı, amma, təbii ki, heç kim məsələnin nə olduğunu bilmirdi.

...Çaylarımız növbəti dəfə təzələnir. Kamal Yılmaz Paşa bir az fikirləşdikdən sonra deyir:

– Səbuhi, sənə bir sirri də açım. Heydər Əliyev böyük şəxsiyyət idi. Onun böyük dövlətçilik təcrübəsi Azərbaycanı məhv olmaqdan xilas etdi. Mənim bu dahi insanla çoxsaylı görüşlərim olub. Ancaq buna baxmayaraq, onunla yanaşı olan, sadəcə, bir fotoşəklim var. Bu fotoşəkli də – əlini cibinə salaraq nə isə çıxarmağa çalışır – illərdir, pulqabımda bir xatirə olaraq saxlayıram, – deyə çıxarıb masanın üzərinə qoyur. Bunu və rəhmətlik həyat yoldaşımın şəklini...




Araya bir sükut çökür... Sonra yenidən söhbətimiz başlayır. Bu üçlü söhbətdə bir çox xatirələri canlandırırıq. Hətta bəzən səmimiyyətdən doğan bu söhbətdə "müəyyən qədərlər"i də keçirik. Amma mən bunları qələmə almıram. Qoy bu da oxucularımız üçün mənim peşə məsuliyyətim kimi qəbul olunsun. Sonda bu maraqlı həmsöhbətimizlə sağollaşıb getmək üçün ayağa qalxırıq. Mənə Naxçıvana könül dolusu salam götürməyimi xahiş edir. Deyir ki, bir zamanlar Naxçıvanda gəzib-dolaşdığımız yerləri bir daha görmək istərdim. Çünki Naxçıvan türkün qapısıdır. Onu qorumaq hər birimizin borcudur! Bu fikirləri polkovnik Şenol Çöklü də təkrarlayır. Mən isə elə o dövrlərdə Naxçıvanda Ulu Öndər tərəfindən əsası qoyulmuş milli ordumuzun Naxçıvanı, Azərbaycanı bu gün ayıq-sayıqlıqla qoruduğunu, 44 günlük Vətən müharibəsində işğaldakı torpaqlarımızı böyük qəhrəmanlıqla xilas etdiyini bir daha dilə gətirərəm.

Bəli, Naxçıvan türkün qapısıdır, onu qorumaq hər birimizin borcudur! Bu sözlər, eyni zamanda bir türk generalı və polkovnikinin xələfləri Nuru Paşa, Ənvər Paşa, Kazım Qarabəkir Paşa kimi komandanların 105 il bundan öncə olduğu kimi, bu gün də Azərbaycan üçün, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan üçün qəlblərində gəzdirdiyi böyük bir sevgidir! O sevgi ki bunun təməlində "Bir millət, iki dövlət" fəlsəfəsi dayanır. Və bu gün 26 İyun – Azərbaycan Silahlı Qüvvələr Günüdür! Gününüz və gənümüz mübarək, əziz komandirlər!

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***
***Naxçıvan-Ankara-Naxçıvan***

**P.S.** *Yazının hazırlanmasında göstərdikləri dəstəyə görə keçmiş Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin Əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi Urfullah Qurbanova və Türkiyə Silahlı Qüvvələrinin istefada olan zabiti, polkovnik Şenol Çöklüyə dərin minnətdarlığımızı bildiririk.*

## Naxçıvan teatrı 140-cı mövsümünü başa vurub



*İyunun 25-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının 140-cı mövsümünün bağlanış mərasimində əvvəlcə Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Həsən Kərimov çıxış edib.*

Uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının keçdiyi yola nəzər yetirən nazir müavini bildirib ki, teatrlarımızın yeni inkişaf yoluna çıxmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri var. Mədəniyyətimizin himayədarı hakimiyyətinin bütün dövrlərində Azərbaycan teatrının inkişafı üçün əlindən gələni edib, bu sahədə çalışanların əməyini yüksək qiymətləndirib, bu istiqamətdə bir sıra əhəmiyyətli addımlar atılıb.

Qeyd olunub ki, 2023-cü il 3 fevral tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Bu il həm də Naxçıvan teatrının 140 illiyinin olması ilə əlamətdardır. Naxçıvan teatrı yubileyə 4 yeni tamaşa ilə öz töhfəsini verib. "Xilaskar", "Lənkəran xanının vəzirinin sərgüzəştləri", "Cibimizdəki dəlilik" və "Edama məhkumun son günü" tamaşaları ilə teatrsevərlərin görüşünə gəlib.

Həsən Kərimov 140-cı mövsümün bağlanış mərasimi münasibətilə teatrsevərləri təbrik edərək bildirib ki, yeni mövsümdə Naxçıvan teatrı müasir, zamanla səsləşən, xalqımızın estetik dünyagörüşünün formalaşmasına əhəmiyyətli təsir göstərən maraqlı tamaşalarla teatrsevərlərin qarşısına çıxacaq.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin "Heydər Əliyev İli" çərçivəsində təsdiq etdiyi Tədbirlər Planına əsasən yazıçı-dramaturq Aqşin Babayevin "Xilaskar" əsəri əsasında səhnələşdirilən tamaşa nümayiş olunub. Xalq artisti Kamran Quliyevin quruluş verdiyi səhnə əsərinin quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, ikinci rejissoru Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur.

Səhnə əsərində Xalq artistləri Rza Xudiyev, Həsən Ağasoy, Əməkdar artistlər – Əbülfəz İmanov, Behruz Haxverdiyev, Vidadi Rəcəbli, Nazlı Hüseynquliyeva, Səməd Canbaxşiyev, Günay Qurbanova və digər aktyorlar yer alıb.

Tamaşa ölkə başçısı cənab İlham Əliyevin Vətən müharibəsi zamanı Qarabağın işğaldan azad olmasının həm də ata vəsiyyəti olduğunu bildirən tarixi çıxışı ilə sona çatır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## "Mənim nəğməli dünyam" adlı şeir kitabının təqdimatı olub

Şərur Rayon Mərkəzləşmiş Kitabxana Sisteminin Uşaq kitabxanasında Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirak edən rayon Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Ünbülbanu Musayevanın "Mənim nəğməli dünyam" adlı şeir kitabının təqdimatı keçirilib.



Tədbirdə Uşaq kitabxanasının müdiri Mahiyyət Hüseynova, Mədəniyyət İdarəsinin Həmkarlar İttifaqı Komitəsinin sədri Əfsər Novruzov, Rayon Veteranlar Şurasının sədri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Vidadi Süleymanov çıxış edərək kitabdakı şeirlərin ədəbi-bədii mahiyyətindən danışıblar.

Təqdimatda şeir həvəskarları kitabda toplanmış şeirlərdən qiraət ediblər.

Sonda müəllif ona göstərilən diqqətə görə minnətdarlığını bildirib.

**Aytac CƏFƏRLİ**

# Milli-mənəvi dəyərlərə sadiqliyin və həmrəyliyin təntənəsi – Qurban bayramı

***Ulu Öndər Heydər ƏLİYEV:** Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir.*



İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan bu əziz bayram xeyirxahlıq və mərhəmət duyğularının təcəssümü olmaqla yanaşı, bərabərlik və dözümlülük ovqatını da insanlarda gücləndirir. Dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramını Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımız da sevinclə qeyd edirlər. Bu, xalqımızın mənəvi dəyərlərinə dövlət qayğısının nəticəsidir. Ümumilikdə, dini-mənəvi dəyərlərə həssas münasibət, müxtəlif dinlərə və sivilizasiyalara hörmət, tolerantlıq demokratik Azərbaycan cəmiyyətinin mənəvi əsaslarını təşkil edir.

Müqəddəs Qurban bayramı İslam aləmində ən əziz bayramlardan biri, eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin bir hissəsidir. Bütün müsəlman aləmində hər il Hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən, üç gün davam edir. İslam dinində bu ayın xüsusi mahiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.

Dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı hicrətin ikinci ilində fərz qılınıb. "Qurani-Kərim"in "Kövsər" surəsində deyilir: *"Rəbbin üçün namaz qıl və qurban kəs. De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür". "Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər".*

Sovet imperiyasının tərkibində yaşadığımız 70 il ərzində də xalqımız tarixi keçmişindən, dini və milli-mənəvi dəyərlərindən uzaqlaşmadı. Bütün dövrlərdə Azərbaycan xalqı insani kamilliyə, mənəvi paklığa qovuşmağa, xeyirxah işlər görərək savab qazanmağa can atıb, İslam dininin mahiyyətini dərk edərək onun müqəddəs çağırışlarına, mərasim və ayinlərinə əməl etməyə çalışıb. Azərbaycan xalqı hələ sovet dönəmində bütün qadağalara baxmayaraq, müqəddəs Qurban və Ramazan bayramlarını da qeyd edirdi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün sahələrə ayrılan diqqət kimi, milli-mənəvi dəyərlərimizə də xüsusi önəm verildi. Dini ocaqların, müqəddəs yerlərin təmir və bərpa işlərinin əsası da o vaxtdan qoyuldu. Ümummilli Lider Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra respublikamızın ərazi hüdudlarında yaşayan bütün xalqların mədəniyyətinə, adət-ənənəsinə, dini baxışlarına tolerant münasibətin vacibliyini xüsusi vurğulamışdır. Konstitusiyanın qəbulundan sonra ölkədə dini-mənəvi münasibətləri tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Ulu Öndər Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriklərindən birində demişdi: ***"Qoy bütün milli və dini bayramlarımız kimi mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha sıx birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin!"***

Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi dəst-xət cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin elə ilk dövründən əsas istiqamət kimi götürüldü. Prezident cənab İlham Əliyev dini-mənəvi dəyərlərin, maddi mədəniyyət abidələrinin bərpası və təmiri ilə bağlı ardıcıl tədbirlər görməyə başladı. Azərbaycan xalqının dini dəyərlərinə böyük ehtiram göstərən Prezident cənab İlham Əliyev hər il Azərbaycan xalqına bayram təbriki ünvanlayır və xoş arzuları çatdırır. Dövlətimizin başçısı müraciətində Qurban bayramının Allahın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi özündə mənəvi birliyi, həmrəyliyi, xeyirxahlığı və dözümlülüyü ehtiva edərək insanın ən çətin məqamlarda düzgün mövqe seçmək və ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini əks etdirdiyini vurğulayır: ***"Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir.***

***Azərbaycan xalqı əsrlərboyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilmiş, ən mürəkkəb dövrlərdə belə öz milli-mədəni dəyərlərini qoruyub saxlamışdır. Müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi nümayiş etdirən dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il ölkəmizdə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir".***

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyev tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsi, xüsusən də dini ziyarətgahların əsaslı təmiri və yenidən qurulmasına da xüsusi diqqət yetirmişdir. Azərbaycan Prezidentinin İslam mədəniyyəti nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş və inanc yerlərinin təmiri, bərpası ilə bağlı xüsusi sərəncamlar imzalaması və bu işi şəxsi nəzarətinə götürməsi deyilənlərin əyani təsdiqidir.

Azərbaycan Prezidentinin cəmiyyətin mühüm təbəqəsi olan dindarlarla mütəmadi görüşləri, onların dini-mənəvi ehtiyaclarına həssaslıqla yanaşması, dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi xalq arasında böyük razılıq və minnətdarlıqla qarşılanır, cəmiyyətdə etnik-dini dözümlülüyün təbliğində və təşviqində mühüm stimul rolu oynayır. Dövlətin bu sahəyə diqqət və qayğısı Azərbaycandakı bütün mövcud milli-etnik qrupları, dini-mənəvi təşkilatları əhatə edir. Bu gün Azərbaycanda dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, İslam və qeyri-islam dini icmalar öz etiqadlarını azad və sərbəst şəkildə icra edirlər.

Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Azərbaycanda mövcud olan tolerantlıq, multikulturalizm, ölkəmizin mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələr diqqət mərkəzindədir və nümunə kimi göstərilir. Dünya siyasətinə əsaslı təsir imkanı olan müsəlman dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsi prioritet məqsədə çevrilib. Artıq İslam həmrəyliyinin zamanın çağırışı olması Bakıdan bütün müsəlman dünyasına yayılır. Azərbaycan xalqı öz liderinin – Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Qüdrətli dövlət başçımız yalnız hərb meydanında Müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Bütün bunların məntiqi nəticəsi olaraq 30 il işğal altında olan əzəli torpaqlarımız işğaldan azad edildi. Hər bir kəndin, qəsəbənin, şəhərin azad olunması xalqımız tərəfindən el bayramı kimi, böyük sevinclə qarşılandı. İşğaldan azad olan torpaqlarımızda ilk azan səsi ucaldı. Hazırda erməni vandalizminə məruz qalmış məscidlər, mədrəsələr, dini abidələr bərpa edilir.

Qeyd etdiyimiz kimi, digər müsəlman ölkələri kimi, İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş edən respublikamızda da İslam dinindən irəli gələn vəzifələr böyük ehtiramla yerinə yetirilir. Qurban bayramı ilə əlaqədar hər il yüzlərlə zəvvarımızın Həcc ziyarətində olması xalqımızın öz dinimizə bağlılığının nümunəsidir. Əzəli torpaqlarımıza – doğma Qarabağımıza qayıdan soydaşlarımız dini bayramlarımızı, xüsusilə də həmrəylik, humanizm kimi ali dəyərlər aşılayan Qurban bayramını öz ata-baba yurdlarında ikiqat təntənə ilə qeyd edirlər. İnsanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayan bu bayram ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da hər il geniş şəkildə qeyd olunur. Məscidlərdə bayram namazı qılınır, qurban əti paylanılır. Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın bütün rayonlarında da sağlamlıq imkanları məhdud şəxslərə, aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan ailələrə, şəhid ailələrinə və qazilərə, Naxçıvan Hərbi Hospitalına, muxtar respublikada təhsil alan əcnəbi tələbələrə və digərlərinə bayram payı verilir.

Bu il Qurban bayramında daha bir ibadətgahımızda bayram namazı qılınacaq, müqəddəs "Qurani-Kərim"dən ayələr səslənəcək, dualar yüksələcək. "Heydər Əliyev İli"ndə, 15 İyun – Milli Qurtuluş Günündə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin iştirakı ilə Naxçıvan şəhərində Heydər məscid kompleksinin istifadəyə verilməsi dindarlara ən qiymətli töhfə oldu. Ölkəmizin ən böyük məscid binasında eyni vaxtda 5 min nəfər ibadət edə bilər ki, bu, Azərbaycanda ulu əcdadlarımıza məxsus dini-mənəvi dəyərlərə dövlət səviyyəsində yüksək ehtiramın təzahürüdür.

*Milli-mənəvi dəyərlərə, ənənələrə sədaqət və qayğı ilə yanaşan bütün müsəlmanları hallalıq, paklıq, birlik, şəfqət və mərhəmət duyğularının təntənəsi olan Qurban bayramı münasibətilə təbrik edir, kəsilən qurbanların Tanrı dərgahında qəbul olunmasını diləyirik!*

**Gülcamal TAHİROVA**

## Magistrantların XIV regional elmi konfransı keçirilib



*Naxçıvan Dövlət Universitetində ali təhsil ocağının, Naxçıvan Müəllimlər İnstitutunun, "Naxçıvan" Universitetinin magistrantlarının birgə regional elmi konfransı keçirilib.*

Magistratura mərkəzinin direktoru, biologiya elmləri doktoru Etibar Məmmədov çıxış edərək muxtar respublikada təhsilə göstərilən qayğı nəticəsində yaradılan müasir şəraitdən danışıb. Qeyd olunub ki, magistrantlar bu qayğıdan bəhrələnərək respublikamızın müxtəlif ali təhsil müəssisələrində və xarici ölkələrdə keçirilən elmi konfranslarda iştirak edirlər. Bildirilib ki, hazırda universitetin Magistratura təhsil səviyyəsində I kurslarda 71 ixtisaslaşma üzrə 189 nəfər, II kurslarda isə 66 ixtisaslaşma üzrə 218 magistrant təhsil alır.

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev konfransda çıxış edərək muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin magistrantlarının elmi konfranslarının keçirilməsinin artıq ənənə halını aldığını vurğulayıb.

Sonra Naxçıvan Dövlət Universitetinin magistrantlarından Gülüm Məmmədovanın, Röya Rzayevanın, Nardanə İlyasovanın müxtəlif mövzularda çıxışları dinlənilib.

Sonda İnformasiya mühafizəsi və təhlükəsizliyi ixtisası üzrə Fuad Babayevə "İlin magistrantı" diplomu təqdim edilib. Bir qrup magistrant isə könüllülük fəaliyyətinə görə diplomla mükafatlandırılıb. Konfrans 12 bölmədə öz işini davam etdirib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Gimnastlarımız Bakıda keçirilən beynəlxalq tədbirdə uğurla çıxış edib

Dənizkənarı bulvarda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş gimnastika hamı üçün növü üzrə 1-ci Bakı Beynəlxalq "Challenge"i reallaşıb.

Azərbaycanla yanaşı, Gürcüstan və Litvanın təmsil olunduğu (46 komandadan 446 iştirakçı) beynəlxalq idman tədbirində muxtar respublika gimnastları da çıxış ediblər. Tədbir çərçivəsində iştirakçıların yürüşü, ustad dərsləri, əyləncə dolu proqramlar təşkil olunub. Komandaların təqdimatında maraqlı kompozisiyalardan ibarət çıxışlar izlənilib.

Naxçıvan Atletika Federasiyasının Naxçıvan şəhər və Şərur rayon gimnastika bölmələrindən məşqçilər Humay Qafarova və Xanım Əhmədovanın rəhbərliyi ilə, ümumilikdə, 23 idmançı "Challenge"də çıxış etmək imkanı qazanıb. Şəhər bölməsinin üzvlərinin çıxışı birinci yerlə qiymətləndirilib. Bundan əlavə, onlar "Ən gözəl kostyum" nominasiyasının qalibi adına layiq görülüblər. İlk dəfə beynəlxalq turnir həyəcanı yaşayan şərurlu gimnastlar isə ikinci yerə sahib çıxıblar.



Sonda bütün iştirakçılar mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Yay Futbol Düşərgəsi başa çatıb



Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Futbolun İnkişaf Fondu tərəfindən 2023-cü ilin 19-25 iyun tarixdə Futbol İnkişaf Fondunun Uzunoba bazasında təşkil edilən 7 günlük futbol düşərgəsi başa çatıb.

7 gün davam edən düşərgə maraqlı anlarla yadda qalıb. Düşərgə iştirakçıları bir həftə ərzində UNICEF-in və nazirliklərin aid əməkdaşlarının keçirdiyi müxtəlif təlimlərə, seminarlara cəlb olunub, mövzuya dair videoçarx, film, slaydlar izləyiblər. İştirakçılar futbolun sirlərini öyrənib, futbol sahəsində öyrəndiklərini əyani olaraq ali dərəcəli hakim Elçin Məsiyevin müşayiətində futbol məşqlərində həyata keçiriblər. Düşərgənin yekununda uşaqlar sertifikatla təltif ediliblər. Eyni zamanda təşkilatçılara təşəkkürnamələr təqdim edilib.

Uşaqların asudə vaxtlarının səmərəli təşkili, intellektual inkişafı məqsədilə təşkil edilən Yay Futbol Düşərgəsi xoş təəssüratla yadda qalıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 400